https://doi.org/10.59849/3006-1342.2026.1.78
UOT 94

*Nərgiz Nağı qızı İbrahimova*
*Gəncə Dövlət Universitetinin*
*Ümumi tarix kafedrasının müəlimi*
*E-mail: nergiz686@gmail.com*
*ORCID ID: 0009-0003-8299-8117*

# QƏDİM ŞƏRQ SİVİLİZASİYASININ HET MƏDƏNİYYƏTİ NÜMUNƏSİ

*Het mədəniyyəti e.ə. II minillikdə Kiçik Asiya (Anadolu) regionunda formalaşmış, qədim dünyanın hərbi və siyasi baxımdan ən qüdrətli sivilizasiyalarından biri hesab olunur. Bu mədəniyyət tək bir xalqın deyil, regionun müxtəlif etnik qruplarının qarşılıqlı təsirinin məhsuludur. Mədəniyyətin təşəkkülündə yerli Hatt ənənələrinin dominantlığı, həmçinin Hind-Avropa mənşəli luvi və nalay tayfalarının, eləcə də Hurri etnoslarının rolu əsaslandırılır. Eyni zamanda, Het areallarında prototürk etnik ünsürlərin iştirakına dair elmi fərziyyələr təhlil edilir. Het sivilizasiyasının Şumer-Akkad mədəni irsindən bəhrələnmə dərəcəsi və bu təsirlər yerli ənənələr əsasında araşdırılır. Paytaxt Hattuşada (Boğazgöy) aşkar edilmiş dövlət arxivi, müxtəlif silahlar, əmək alətləri və incəsənət nümunələri mədəniyyətin inkişaf səviyyəsini göstərən maddi sübutlar kimi təqdim olunur. Het mədəniyyəti müxtəlif etnosların və qədim Şərq ənənələrinin qovuşduğu polietnik bir mühitdə yaranmışdır. Mədəniyyətin özəyini Hatt ənənələri təşkil etsə də, bu sivilizasiya Anadolunun yerli xalqları ilə Mesopotamiya mədəniyyətinin unikal sintezi kimi xarakterizə olunur. Het dini qədim dünyanın ən maraqlı və tolerant inanc sistemlərindən biri hesab olunur. Hetlər fəth etdikləri hər bir bölgənin yerli tanrılarını öz panteonlarına daxil edirdilər.Hetlər öz dövlətlərini "Min Tanrı ölkəsi" adlandırırdılar ki, bu da onların fəth etdikləri xalqların tanrılarına göstərdikləri dözümlülüyün və dini sinkretizmin göstəricisidir. Het cəmiyyəti digər qədim Şərq dövlətlərindən fərqli olaraq, daha humanist hüquq sisteminə malik idi. Burada qisas deyil, kompensasiya prinsipi əsas götürülürdü və qadınların (xüsusilə Tavananna — şahzadə-ana) cəmiyyətdəki statusu kifayət qədər yüksək idi.*

*Açar sözlər:* Hetlər, Hattuşa, Anadolu sivilizasiyaları, Hatt ənənələri, Hurrilər, Mixi yazılar, Tavananna

Qədim Şərq tarixində silinməz izlər qoymuş Het mədəniyyəti, təkcə hərbi qüdrəti ilə deyil, həm də daxili mənəvi dünyasının zənginliyi və multikultural quruluşu ilə seçilir. Anadolu torpaqlarında çiçəklənən bu sivilizasiya, özündən əvvəlki və dövrünün qonşu xalqlarının irsini böyük bir ustalıqla sintez etmişdir. Paytaxt Hattuşada aşkar edilən nəhəng arxivlər, qədim dünyanın sosial və dini strukturunu anlamaq üçün ən mötəbər mənbədir. Bu arxivlərin ən diqqətçəkən cəhəti onların polilinqvistik (çoxdilli) xarakteridir. Arxiv sənədlərində bir çox dillərin izlərinə rast gəlinmişdi. Beynəlxalq diplomatiya və elmi terminologiya üçün Şumer və Akkad, qədim ayinlər üçün Hatt, Palaik və Luvian dillərinə, mifoloji və ritual mətnlərin ötürülməsi üçün isə Hurri dillərinə rast gəlinmişdi. Kahinlərin rituallar zamanı bu dillərin hər birində xüsusi dualar və sehrlər oxuması, Het dövlətinin etnik-mədəni təsirinin necə geniş olduğunu sübut edir. Hetlərin dini ritualları yalnız ilahi güclərə sitayiş deyil, həm də xalqın məişət mədəniyyətinin aynasıdır. Rituallarda istifadə olunan qab-qacaqlar, geyimlər və bəzək əşyaları Het sənətkarlığının səviyyəsini göstərir [2, s. 11-12]. Kəsilən qurbanlar və yeməklər vasitəsilə o dövrün qida rasionu və kənd təsərrüfatı haqqında dəqiq təsəvvür yaranır. Yaxın Şərq xalqlarının bir çox müasir adət-ənənələrinin və mifoloji

obrazlarının kökləri məhz bu Het rituallarına dayanır. Hetləri tanımaq, əslində Anadolunun minillik sivilizasiya kodlarını oxumaq deməkdir (şəkil. 1). Bu gün Anadolu torpaqlarında yaşayan insanlar Hetlərin mədəni varisləridir. Het mədəniyyəti sadəcə arxeoloji tapıntı deyil, yaşayan bir irsdir [3, s. 49].



Şəkil. 1

Het (Hatti) padşahlığı, təkcə hərbi gücü ilə deyil, həm də Mesopotamiya mədəniyyətini Anadoluya daşıyan və onu özünəməxsus şəkildə inkişaf etdirən zəngin ədəbi irsi ilə tanınır. Het mədəniyyəti Şumer-Akkad ənənələrinin qərbə ötürülməsində həlledici rol oynamışdır.

Akkad sülaləsinin ən görkəmli nümayəndələri olan və hetlər üçün bir növ "ideal idarəçi" və "yenilməz sərkərdə" simvoluna çevrilmiş Sarqon və Naram-Suenə Het ədəbiyyatında xüsusi yer ayrılmışdır. Het rəvayətlərinə görə, "Umman-manda" adlanan tayfaların 17 müttəfiq ilə birlikdə Hatti ölkəsinə hücum edərək şəhərləri talan etməsi Naram-Suenə həsr olunmuş "Kuta hökmdarı" rəvayəti ilə səsləşir və İkiçayarasının şimal-şərqindəki etnik qrupların hərəkətliliyini əks etdirir.

Mesopotamiyanın intellektual xəzinəsindən istifadə etmək üçün mühüm addımlar atan Hetlər öz dillərini yazıya köçürmək üçün İkiçayarasından gətirilən mixi yazı sistemini tətbiq etmişdilər. Dünya ədəbiyyatının incisi sayılan "Gilqameş haqqında dastan" Het dilinə tərcümə edilmişdir ki, bu da dövrün yüksək mədəni səviyyəsindən xəbər verir. Şumer və Akkad mətnlərini dərindən başa düşmək üçün het alimləri tərəfindən Şumer-Akkad-Het dillərini əhatə edən lüğətlər tərtib olunmuşdur. Bu, tarixdə müqayisəli dilçiliyin ilk nümunələrindən sayılır. Hetlər həmçinin tarixin qeydə alınmasına ciddi yanaşan ilk xalqlardan biri idilər. Onlar tərəfindən yaradılmış rəsmi ədəbiyyat nümunələri həm sənəd, həm də bədii əsər xarakteri daşıyır. Təxminən e.ə. 1275-1250-ci illərdə hökmranlıq etmiş Hett çarı III Hattuşilinin "Tərcümeyi-halı" dünyanın qədim ilk avtobiqrafik nümunələrindən biri hesab olunur. Əsərdə Hattuşilinin uşaqlıq dövrü, onun əyalət hökmdarı olması və İlahə İştarın himayəsi ilə düşmənlərinə qalib gəlməsi bədii dillə təsvir edilir. Padşah Salnamələri, Anitanın kitabəsi, I Hattuşilin və I Suppiluliumun salnamələri Het dövlətinin hərbi və siyasi tarixini gələcək nəsillərə çatdıran mühüm ədəbi-tarixi abidələr sayılır.

Het sivilizasiyası qədim dünyanın ən maraqlı dini sistemlərindən birinə sahib idi. Bu sistem yerli Anadolu (Hatti) inancları ilə kənardan gələn Hind-Avropa, Hurri və Mesopotamiya elementlərinin nadir sintezindən yaranmışdı [6, s. 268-277]. Hetlər fəth

etdikləri hər bir bölgənin tanrısını öz panteonlarına daxil etdikləri üçün bu ölkə tarixdə "Min tanrı ölkəsi" kimi tanınmışdır. Het dini sistemi çoxtanrıçılığa (politeizm) əsaslanırdı. Panteonun başında fırtına və göy tanrısı ilə günəş ilahəsi dayanırdı. Göy Tanrısı (Fırtına Tanrısı) Hetlərin ən ali tanrısı idi (şəkil 2) [1, s. 5-7].

O, müxtəlif dillərdə fərqli adlarla çağırılırdı. Hatti dilində Taru, Hurri dilində Teşub, Het dilində isə Tarhu/Tarhunt. O, adətən güc simvolu olan öküzlə əlaqələndirilir və ya əlində dəyənək, nizə tutmuş halda təsvir olunurdu. Arinnanın Günəş İlahəsi panteonun ən nüfuzlu qadın ilahəsidir. Hatti dilində Vuruşemu, Hurri dilində isə Hepat adlanan bu ilahə həm dövlətin, həm də padşah ailəsinin hamisi sayılırdı. Hetlər İkiçayarasından İştar (eşq və müharibə ilahəsi), Ea (su tanrısı), Şamaş (günəş tanrısı) və Sin (ay tanrısı) kimi ilahları da qəbul etmişdilər. Hetlər tanrılarını tamamilə insan kimi təsəvvür edirdilər. Onların inancına görə, tanrılar da insanlar kimi aclıq və susuzluq hiss edir, xəstələnir və qocalır, insani hisslərə (sevinc, qəzəb, qısqanclıq) sahib olurlar.Bu səbəbdən məbədlərdə tanrı heykəllərinə canlı varlıq kimi qulluq edilirdi. Kahinlər hər gün heykəlləri yuyur, onlara ən nəfis təamlar təqdim edir, mahnı və rəqslərlə onları əyləndirirdilər. Het cəmiyyətində din təkcə məbədlərlə məhdudlaşmırdı, o, dövlət idarəçiliyinin bir hissəsi idi. Het padşahı həm də ölkənin baş kahini sayılırdı. İldə iki dəfə yaz və payızda hökmdar və kraliça bütün ölkəni gəzərək müqəddəs şəhərləri ziyarət edir, tanrılara qurbanlar kəsirdilər. Paytaxt Hattuşada il ərzində 18-dən çox böyük festival keçirilirdi. Bu tədbirlər xalqın birliyini və tanrıların mərhəmətini qazanmaq məqsədi daşıyırdı. Het incəsənətində tanrılar müəyyən atributlarla tanınırdı. Onlar çox vaxt müqəddəs heyvanların üzərində dayanırdılar. Aslan və Bəbir ilahələrin və güclü tanrıların simvolu, Maral təbiət və ov tanrılarının daşıyıcısı, öküz fırtına tanrısının sadiq yoldaşı kimi tanınırdı. Het dini dözümlülük və inteqrasiya üzərində qurulmuşdu. "Min tanrı" konsepsiyası fərqli etnosların bir arada sülh içində yaşamasını təmin edən ideoloji bir vasitə idi.

Het mədəniyyəti Mesopotamiya ənənələrini kor-koranə təqlid etməmiş, onları öz yerli mühitinə uyğunlaşdıraraq qədim dünyanın ən zəngin və rəngarəng ədəbi sistemlərindən birini yaratmışdır.



Şəkil. 2

Hetlər təkcə döyüşçü və ilahiyyatçı deyil, həm də qədim dünyanın ən mahir memarları və sənətkarları idilər. Onların yaradıcılığı Anadolunun sərt qayalıqlarını möhtəşəm sənət əsərlərinə çevirmişdir. Hetlər intellektual sahədə böyük bir yeniliyə imza atmışdılar. Onlar

eyni vaxtda iki fərqli yazı sistemindən istifadə edirdilər. Mixi Yazı Mesopotamiyadan mənimsənilmiş bu yazı növü əsasən dövlət sənədlərində, beynəlxalq yazışmalarda və məşhur "Annallar"da (illik hesabatlar) istifadə olunurdu. Hetlər tarixlərini illiklər şəklində qeydə alan ilk xalqlardan biridir. Het Heroqlifləri (Luvi Yazısı) tamamilə yerli və özünəməxsus olan bu yazı növü daha çox qayaüstü relyeflərdə, möhürlərdə və monumental abidələrdə tətbiq edilirdi.

Het mədəniyyətində həmçinin memarlığın da xüsusi yeri var idi. Het memarlarının daşa olan bağlılığı o qədər güclü idi ki, tədqiqatçılar onları bəzən zarafatla "petromaniaklar" (daş həvəskarları) adlandırırlar. Nəhəng, yonulmamış daş bloklardan istifadə edərək tikdikləri müdafiə divarları bu gün də görənləri heyrətə salır. Hattuşa (Hattusa) paytaxt şəhər özünün "Aslanlı Qapı"sı və əzəmətli divarları ilə Ellinizm dövründən əvvəlki Anadolunun ən böyük monumental memarlıq nümunəsidir. Bu abidələr o qədər mükəmməl idi ki, XIX əsr səyyahları onları səhvən yunan və ya romalılara aid edirdilər. "Yazılıqaya" Het incəsənətinin zirvəsi sayılan bu açıq hava məbədi, birbaşa qayaların üzərində yonulmuş mürəkkəb ilahlar panteonunu əks etdirir. Het sənətkarları hər bir materiala can verməyi bacarırdılar. İbadət məqsədilə hazırlanan heyvan fiqurlu qablar və uzunboğaz çəkmə formalı saxsı məmulatları Het məişətinin ayrılmaz hissəsi idi. Tunc və qurğuşundan tökülmüş insan fiqurları ilə yanaşı, Yeni Het dövləti dövründə sarayları bəzəyən nəhəng daş heykəllər yaradılırdı. Het möhürləri Mesopotamiya nümunələrindən fərqlənirdi. Dairəvi və dördbucaq formalı bu möhürlərin mərkəzində hökmdarın təsviri, kənarlarında isə heroqlif yazıları yer alırdı. Hetlərin özünəməxsus üslubu özündən sonra gələn Assur və Urartu incəsənətinə dərindən təsir göstərmişdir. Onların memarları Afina Akropolunun ustaları qədər bacarıqlı idilər və qədim Yaxın Şərqin memarlıq simasını dəyişdirmişdilər. Het mədəniyyəti Anadolunun sərt coğrafiyasını intellektual və bədii yaradıcılıqla birləşdirərək bəşər tarixinə silinməz izlər qoymuşdur [6, s. 274].

Qədim dünya tarixində Het cəmiyyəti özünün yüksək inkişaf etmiş sənətkarlığı və xüsusilə metallurgiya sahəsindəki nailiyyətləri ilə seçilir. Arxeoloji qazıntılar və dövrün qanunvericilik sənədləri göstərir ki, Het dövlətində peşəkar sənətkarlar təbəqəsi formalaşmış, iqtisadiyyatın əsasını müxtəlif peşə sahələri təşkil etmişdir. Het qanunlarında bir çox sənət sahələrinin adlarının çəkilməsi, cəmiyyətdə əmək bölgüsünün dərinləşdiyini sübut edir. Bu dövrdə bir çox sahələr xüsusilə inkişaf etmişdi. Metalişləmə sənətkarlığın ən strateji sahəsi, dülgərlik tikinti və məişət əşyalarının hazırlanması,gönçülük dəri məmulatlarının emalı. Anadolu regionu hələ e.ə. III-II minilliklərdə dəmirin istifadə olunduğu ilk məkanlardan biri olmuşdur. Lakin Hetlərin hakimiyyəti dövründə dəmir istehsalı öz zirvəsinə çatmışdır. Maraqlıdır ki, o dövrdə dəmir nadir tapıldığı üçün strateji və bahalı bir metal hesab olunurdu. Bu fakt e.ə. XIV-XIII əsrlərdə dəmirin nə dərəcədə böyük sərvət hesab olunduğunu və Het hökmdarlarının xəzinəsində xüsusi yer tutduğunu göstərir. Yazılı mənbələrdə çəkisi 45 kq-a çatan dəmir külçələrinin adı çəkilir ki, bu da istehsalın miqyasından xəbər verir. Het ustaları həm gündəlik təsərrüfat ehtiyacları, həm də dini və estetik məqsədlər üçün müxtəlif əşyalar hazırlayırdılar.Dəmirdən üzük, sırğa və silsilələr, qalaydan isə insan və heyvan fiqurları hazırlanırdı. Xəncər, qılınc, bıçaq, toppuz və nizələr Het ordusunun qüdrətini artırırdı. Oraq, balta, çəkic və mismar kimi alətlər əkinçilik və tikintidə inqilab etmişdi. Het mədəniyyətinin zənginliyi təkcə maddi tapıntılarla deyil, həm də paytaxt Hattuşada (Boğazgöy) aşkar edilmiş nəhəng dövlət arxivi ilə sübut olunur. Bu arxivlərdəki yazılı lövhələr hetlərin dövlət quruluşu, qanunları və mədəniyyətinin formalaşmasında müxtəlif etnosların rolunu aydın şəkildə nümayiş etdirir. Het sənətkarlığı qədim Şərq və Anadolu mədəniyyətinin sintezi kimi meydana gəlmiş, dəmirdən istifadə sahəsində atılan addımlar bəşəriyyətin texnoloji tərəqqisində yeni bir mərhələnin əsasını qoymuşdur[4, s. 82-83].

ƏDƏBİYYAT

1. Akurgal Ekrem. Hatti ve Hitit Uygarlıkları. Net Turistik Yayınlar, İstanbul 1995.
2. Ардзинба В. Г., Хеттология, хаттология и хурритология Москва-2015.
3. Güterbock, H.G. Hittite Historiography: A Survey, Hebrew University, Magnes Press. 1983.
4. Hüseynov İ., Əfəndiyeva N. Qədim dünya mədəniyyəti. Bakı- 2009.
5. Ünal, Ahmet: Hittite Architect and a Rope-Climbing Ritual. Ankara-1988.
6. Yusifov Y. Qədim şərq tarixi. Bakı - 2007.

УДК 94

*Наргиз Наги кызы Ибрагимова*
*Гянджинский Государственный Университет*

## ОБРАЗЕЦ ХЕТТСКОЙ КУЛЬТУРЫ ДРЕВНЕВОСТОЧНОЙ ЦИВИЛИЗАЦИИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Хетты, Хаттуса, анатолийские цивилизации, хаттийские традиции, хурриты, клинописное письмо, Тавананна

Хеттская культура сформировалась во II тысячелетии до н. э. на территории Малой Азии (Анатолии) и считается одной из наиболее могущественных цивилизаций древнего мира в военно-политическом отношении. Данная культура представляла собой не однородное этническое образование, а результат взаимного влияния различных народов региона. В её формировании доминировали местные хаттийские традиции, а также значительную роль сыграли лувийские и другие индоевропейские племена, наряду с хурритским этническим компонентом. Одновременно в научной литературе рассматриваются гипотезы о возможном присутствии прототюркских элементов на хеттских территориях. Степень влияния шумеро-аккадского культурного наследия на хеттскую цивилизацию анализируется с учётом адаптации этих традиций к местной культурной среде. В качестве материальных свидетельств высокого уровня развития культуры рассматриваются государственный архив, различные виды оружия, орудия труда и произведения искусства, обнаруженные в столице Хаттуса (Богазкёй). Хеттская культура возникла в полиэтничной среде, где взаимодействовали различные этносы и древневосточные традиции. Несмотря на то что ядро культуры сформировали местные традиции, данная цивилизация представляет собой уникальный синтез коренных народов Анатолии и культурных влияний Месопотамии. Хеттская религия считается одной из наиболее интересных и толерантных систем верований древности. Хетты включали в свой пантеон богов покорённых народов, называя своё государство «Страной тысячи богов», что свидетельствует о религиозном синкретизме и терпимости. Правовая система хеттского общества отличалась сравнительно гуманным характером по сравнению с другими древневосточными государствами. Она основывалась преимущественно на принципе компенсации, а не возмездия. Статус женщин, особенно Тавананны (царицы-матери), был достаточно высоким, что подчёркивает специфику социально-политической структуры хеттского государства.

UDC 94

*Nargiz Naghi Ibrahimova*
*Ganja State University*

# A HITTITE CULTURE EXAMPLE OF AN ANCIENT EASTERN CIVILIZATION

*SUMMARY*

*Keywords:* Hittites, Hattusa, Anatolian civilizations, Hattian traditions, Hurrians, Cuneiform writing, Tavanana

The Hittite culture was formed in the second millennium BCE in the region of Asia Minor (Anatolia) and is regarded as one of the most powerful civilizations of the ancient world in military and political terms. This culture did not represent a single ethnic group but emerged as a result of the interaction and mutual influence of various peoples of the region. The predominance of local Hattian traditions in the formation of Hittite culture is emphasized, alongside the significant contributions of Luwian and other Indo-European tribes, as well as the Hurrian ethnocultural component. At the same time, scholarly hypotheses concerning the possible presence of proto-Turkic elements in Hittite territories are also examined. The influence of the Sumerian-Akkadian cultural heritage on the Hittite civilization is analyzed in the context of its adaptation to local traditions. Material evidence of the high level of cultural development includes the state archives, various types of weapons, tools, and works of art discovered in the capital city of Hattusa (Boghazkoy). Hittite culture developed within a polyethnic environment in which diverse ethnic groups and ancient Near Eastern traditions converged. Although its core was shaped by Hattian traditions, the civilization is characterized as a unique synthesis of the indigenous cultures of Anatolia and the broader cultural heritage of Mesopotamia. Hittite religion is considered one of the most distinctive and tolerant belief systems of the ancient world. The Hittites incorporated the local deities of conquered regions into their pantheon and referred to their state as the "Land of a Thousand Gods," reflecting their religious syncretism and tolerance.

In comparison with other ancient Near Eastern states, Hittite society maintained a relatively humane legal system. It was based primarily on the principle of compensation rather than retribution. The status of women, particularly that of the Tawananna (queen mother), was notably high, underscoring the distinctive social and political structure of the Hittite state.

***Daxil oldu: 13.02.2026-cı il***